**Folklorşünaslıq**

# Ə.H.Tarhanın yaradıcılığına Tənzimat dönəmi kontekstində baxış

**İradə Abbasova**
AMEA Folklor İnstitutu. Azərbaycan.
E-mail: irada.abbasova61@gmail.com

**Annotasiya.** XVI-XVII əsrlərdə dünyanın ən qüdrətli dövləti olan Osmanlı imperiyası XIX əsrdən başlayaraq öz tənəzzül dövrünü yaşayırdı. Belə bir vaxtda Osmanlını parçalanmaqdan qurtarmaq, Misir məsələsində Avropanın dəstəyini almaq, Avropanın etnik azlıqları bəhanə edərək Osmanlının daxili işlərinə qarışmasının qarşısını almaq, fransız qiyamının yaydığı milliyyətçilik axınının təsirini azaltmaq, etnik azlıqların Osmanlıya bağlılığını davam etdirmək üçün imperiyada müəyyən islahatlar aparmaq və güzəştlərə getmək qaçılmaz idi. Bu səbəbdən o zaman "Tənzimat" adlı fərman hazırlanmış və 3 oktyabr 1839-cu ildə Gülhanə parkında elan edilmişdi.
Osmanlıda aparılan islahatlar ölkənin ictimai-siyasi, həmçinin iqtisadi həyatına təsirlə yanaşı, ədəbiyyata da təsir etməkdə idi. Bir çox sahələrdə Avropa ilə yaxınlaşma, ona bənzəmə cəhdi, onu təqlidetmə səyləri, təbii ki, ədəbiyyat sahəsindən də yan keçmədi və nəticədə Avropa ədəbiyyatının türk ədəbiyyatına həm forma, həm də məzmun baxımından təsirini özündə əks etdirən Türkiyə Tənzimat ədəbiyyatı formalaşdı. Tənzimat dövründə nəsr və dramaturgiya, eləcə də poeziya sahəsində forma, məzmun, ideya və s. cəhətdən xeyli yeniliklər özünü göstərmişdi. Tənzimat ədəbiyyatının bir sıra qüsurları olsa da, bu ədəbiyyat Türkiyə ədəbiyyatının yeni forma və məzmun qazanmasına səbəb olmuşdur. Bu prosesdə Əbdülhaq Hamid yaradıcılığının böyük rolu olmuşdur.
**Açar sözlər:** Osmanlı İmperiyası, Tənzimat fərmanı, Tənzimat ədəbiyyatı, İbrahim Şinasi, Namiq Kamal, Əbdülhaq Hamid

**Məqalə tarixçəsi:** göndərilib – 12.02.2022; qəbul edilib – 20.02.2022

# A look at the creativity of A.H.Tarhan in the context of the Tanzimat era

**Irada Abbasova**
Folklore Institute of ANAS. Azerbaijan.
E-mail: irada.abbasova61@gmail.com

**Abstract.** Considered in the 16th-17th centuries the most powerful state in the world, the Ottoman Empire in the 19th century experienced a period of weakening and decline. In these conditions, in order to prevent further disintegration of the empire, to get the support of Europe in the Egyptian question, to stop the interference of European powers in the internal affairs of the empire, carried out under the pretext of protecting ethnic minorities, to stop the spread of ethnic nationalism and separatism associated with the influence of the ideas of the French Revolution, to strengthen ties etween ethnic minorities and the Ottoman state, certain reforms were absolutely necessary. For this reason, a decree was prepared, announced on October 3, 1839 in Gulhane Park, which began the era of Tanzimat.

The reforms carried out in the empire influenced not only economic and socio-political life, but also literature. The desire for rapprochement with Europe, imitation of it, adherence to European models naturally did not escape Ottoman literature, in which, under European influence on its form and content, a completely formed trend called the Literature of the Tanzimat era. During this period, significant innovations took place in prose and drama, as well as in poetry in terms of their form, content and idea. Despite the known problems, the literature of the Tanzimat era brought new content and forms to the Turkish national culture. In all this, the work of Abdulhag Hamid played an important role.
**Keywords:** Ottoman Empire, Tanzimat decree, Literature of the Tanzimat era, Ibrahim Shinasi, Namig Kamal, Abdulhag Hamid

**Article history:** received – 12.02.2022; accepted – 20.02.2022

## Giriş / *Introduction*

Osmanlı Türkiyəsinin ictimai-siyasi, eləcə də mədəni-ədəbi həyatında müxtəlif hadisələr, yüksəlişli və enişli məqamlar, mərhələlər olmuşdur. Bu mərhələlər isə özü ilə müəyyən dəyişikliklərin gəlməsini labüd bir hala çevirmişdir. Osmanlı tarixində belə narahat, təbəddülatlarla dolu dönəmlərdən biri də Tənzimat fərmanının adı ilə bağlı olan Tənzimat dönəmidir. 1839-cu ildə Tənzimat fərmanının imzalanması Osmanlı Türkiyəsinin ictimai-siyasi, eləcə də ədəbi-mədəni həyatında yeni bir mərhələnin başlanğıcını qoymuşdur.

## Əsas hissə / *Main Part*

Qeyd edildiyi kimi, əslində Osmanlı imperiyasının zəifləməsində bir sıra Avropa ölkələrinin də "payı" var idi. Onlar müəyyən bəhanələrlə Osmanlının daxili işlərinə qarışır, imperiyanın tabeçiliyində olan etnik qrupların arasında narazılıq yaradır və üsyan toxumu səpərək onun parçalanması üçün çalışırdılar. Belə bir durumda Osmanlı hakimiyyəti ölkədə müəyyən islahatlar aparmağa, tabeçiliyində olan etnik qrupların haqq və hüquqları ilə bağlı müəyyən güzəştlərə getməyə, onlarda yaranan müəyyən narazılığı aradan qaldırmağa və beləliklə, onların imperiyaya bağlılığını artırmağa məcbur idi. Bu baxımdan o zaman Tənzimat fərmanı hazırlanmış və 3 oktyabr 1839-cu ildə Gülhanə parkında elan edilmişdi. "...Avropa dövlət maraqlarının Türkiyəyə nüfuz etməsi get-gedə artmağa başlayırdı. 1839-cu ildə Osmanlı dövlətinin qəbul etdiyi Tənzimat islahatı bilavasitə Avropa təsirləri ilə bağlı idi. Daha dəqiq ifadə etsək, Tənzimat islahatı Osmanlı dövləti tərəfindən Avropa, həm də Rusiya müdaxiləsi qarşısında "öz varlığını qorumaq üçün həyata keçirdiyi siyasi, ictimai, mədəni hərəkat idi" [4, s.103]. "Gülhanə-Xətti-Şərifi"nin oxunmasıyla başlayan bu dövr Tənzimat dövrü adlanır [6].

Tənzimat fərmanının Osmanlı tarixində müsbət və ya mənfi bir fərman olduğuna dair bir çox fikirlər mövcuddur. Tənzimat fərmanı ilə bağlı aparılan bir çox tədqiqatlara nəzər salmış E.Quliyevin fikirləri diqqət çəkməkdədir: "Tənzimat fərmanı ilk növbədə siyasi sənəd idi. Bu fərmanın tətbiqi Osmanlı dövlətinin ictimai-siyasi həyatında dəyişiklik yaratdığı kimi, onun yeni mədəniyyətininin formalaşmasına da təsir göstərdi. Ona görə də tədqiqatçılar Tənzimat dövrü hadisələrini xarakterizə edərkən onu həm siyasi, həm də mədəni baxımdan xarakterizə edirlər" [3, s.121].

Əslində Qərb dünyasının güddüyü əsas məqsəd Osmanlı imperiyasının tərkibində olan xalqların hüquqlarının artmasına şərait yaratmaqla imperiya tərkibində baş verə biləcək qiyamlar, üsyanlar üçün zəmin hazırlamaq idi. Hələ çox sonralar M.A.Ersoy özünün "İstiqlal marşı"nda Qərb dünyasının mahiyyətini bütün çılpaqlığı ilə sərrast şəkildə belə izah etmişdir:

*Qərbin afaqını sarmışsa çelik zırhlı hilal,*
*Mənim iman dolu köksüm kimi sərhəddim var.*
*Qorxma, nasıl böylə bir imanı boğar,*
*"Mədəniyyət" dediyin tək dişi qalmış canavar.*
[7]

Osmanlıda aparılan sözügedən islahatlar ölkənin ictimai-siyasi, həmçinin iqtisadi həyatına təsirlə yanaşı, ədəbiyyata da təsir etməkdə idi. Bir çox sahələrdə Avropa ilə yaxınlaşma, ona bənzəmə cəhdi, onu təqlidetmə çabası təbii ki, ədəbiyyat sahəsindən də yan keçməmişdi. "Nəticədə Avropa ədəbiyyatının türk ədəbiyyatına həm forma, həm də məzmun baxımından təsirini özündə əks etdirən Tənzimat ədəbiyyatı formalaşdı. Tənzimat ədəbiyyatı Avropa ədəbi modelinin Türkiyədə qəbulu və inkişafı demək idi" [3, s.112-113].

**Tənzimat ədəbiyyatı əslində Türkiyə tarixində siyasi və mədəni bir dəyişikliyin ədəbiyyatdakı labüd və qaçılmaz nəticəsi kimi ortaya çıxmışdır.** Bu dövrdən etibarən türk ədəbiyyatında Avropa tərzində əsərlər meydana gəlməyə başladı. Tənzimat ədəbiyyatının əsas təəssübkeşləri yeni ədəbiyyatı tam müdafiə etməklə yanaşı, klassik ədəbiyyatın da müəyyən xüsusiyyətlərinə olan maraqlarını gizlətmirdilər. Şinasi, Ziya Paşa, Namiq Kamal, R.Əkrəm, Ə.Hamid və s. sənətkarlar əski ədəbiyyatın dil, forma və s. cəhətlərinə hörmətlə yanaşır, hətta onu müdafiə edirdilər" [1, s.114].

Türkiyə ədəbiyyatı tarixində Tənzimat ədəbiyyatı adlanan ədəbi axın iki mərhələyə ayrılır: **I mərhələ Tənzimat ədəbiyyatı 1860-1877-ci illəri, II mərhələ Tənzimat ədəbiyyatı 1877-1895-ci illəri əhatə edir.**

**Tənzimat ədəbiyyatının I mərhələsi** 1860-cı ildə "Tərcüman-ı əhval" qəzetinin nəşr olunması ilə başlanır. Ümumiyyətlə, Tənzimatın gəlişi ilə ölkədə yeni üsullu məktəblərin, teatrların, mətbəələrin açılması ilə yanaşı, həmçinin qəzet və kitabların nəşri də geniş vüsət alırdı. "Artıq Tənzimat fərmanından sonra Türkiyədə bir-birinin ardınca "Cərideyi-havadis" (1840), "Tərcümani-əhval" (1860), "Təsviri-əfkar" (1862), "Müxbir" (1867), "Hürriyyət" (1868), "İbrət" (1871), "Tərcümani-həqiqət" (1878) qəzetləri və "Məcmuəyi-fünun" (1862), "Məlumat" (1893) və s. jurnalları çap olunmağa başladı. Əsasən, bu qəzet və jurnallar Tənzimat hərəkatının cücərtiləri olduğundan, daha çox Avropadan təsirlənir, Avropa mədəniyyəti ilə bağlı yazılara daha çox yer verilirdi" [3, s.113].

**Tənzimat ədəbiyyatının I mərhələsin**in başlanmasını bəzən İ.Şinasinin "Şairin evlənməsi" komediyasını yazdığı tarixlə də (1959) bağlayırlar. **I mərhələ** 1877-ci ildə II Əbdülhəmidin Məşrutiyyət Məclisinin fəaliyyətini dayandırması qərarı ilə başa çatmış hesab olunur.

Birinci dönəm Tənzimat ədəbiyyatı bir sıra əlamətlərə malik idi. Bu dövrdə divan ədəbiyyatının tənqid edilməsinə rəğmən onun təsirindən yaxa qurtarmaq mümkün olmamışdır. "Vətən", "millət", "haqq", "ədalət", "azadlıq" kimi anlayışlar ədəbiyyatda ilk dəfə məhz bu dönəmdən istifadə olunmuş və Qərb – Avropa üslubunda ilk əsərlər meydana gəlməyə başlamışdır. Dilin hamının anlayacağı şəkildə sadələşdirilməsi ən vacib şərt kimi qarşıya qoyulmuşdu. Bu işə cidd-cəhdlə yanaşılsa da, təəssüf ki, arzuolunan nəticə əldə edilmədi. Bu dövrdə roman, hekayə, dram, qəzet, ədəbi tənqid yaranmağa başlamışdı.

I mərhələ Tənzimat nümayəndələri daha çox fransız ədəbiyyatının əsasən, klassisizm (Şinasi, Əhməd Vefik Paşa) və romantizm (Namiq Kamal, Əhməd Kamal, Əhməd Midhət Əfəndi) ədəbi cərəyanlarının təsirində olmuşlar. Ümumiyyətlə, Tənzimat ədəbiyyatı (xüsusən, birinci mərhələ tənzimat ədəbiyyatı) Avropa təsirli ilk ədəbiyyat olduğundan, Avropa ədəbiyyatı janrlarının da ilk dəfə müşahidə edildiyi bir ədəbi dövrdür.

Roman janrının ilk örnəkləri bu mərhələdə yeni-yeni meydana çıxır. Yeni yaradıcılıq növü olduğundan, yəni bu sahədə olan təcrübəsizlikdən romanlar sənətkarlıq baxımından zəif və qüsurlu idilər. Romanlarda əsasən ailə-məişət məsələləri, kölə ticarəti, avropalaşma və s. kimi mövzular qələmə alınmışdır [9].

Tənzimat dövründə teatr sənəti də çox inkişaf etmişdir. Həmin dövrdə teatr xalqı maariflədirmək üçün vacib vasitələrdən biri hesab olunurdu. Teatra olan münasibətin aktuallığı onun və eləcə də dramaturgiyanın inkişafını labüdləşdirirdi.

Birinci dönəm tənzimat ədəbiyyatının ilk ədiblərindən biri İbrahim bəy Şinasi **(1826-**

**1871)** idi. "Xalq üçün sənət" şüarının tərəfdarı olan Şinasi Türkiyə ədəbiyyatına bir çox yeniliklər gətirmişdir. Onun "Şairin evlənməsi" komediyası Türkiyə ədəbiyyatında ilk dram əsəri sayılır.

Bir pərdəlik bu əsər əvvəlcə 1860-cı ildə "Tərcüməni-əhval"da hissə-hissə, sonra isə eyni ildə də kitab halında nəşr olunmuşdur. Əsər görücü üsulu ilə evlənmə mövzusuna həsr olunmuşdur. Əsərdə müəllif tərəfindən uzun zamandan bəri xalq arasında mövcud olan sözügedən üsulla evlilik ənənəsi qətiyyətlə qınanılmış və həmin adətin mənfi tərəfləri satirik üslub vasitəsilə kəskin şəkildə tənqid olunmuşdur. "Əsərin mövzusu adi həyatdan götürülmüşdür. Burada məişət problemləri diqqət mərkəzində saxlanılır. "Şairin evlənməsi" komik üslubda yazılsa da, burada müəyyən dramatizm də vardır. Hər şeydən əvvəl, türk ədəbiyyatşünasları Şinasinin bu əsəri ilə "Molyer komediyaları arasında bir yaxınlıq və bağlılıq" görürlər. Molyer komediyalarının faciənin yanından keçməsi fikrinin dəqiq və düzgünlüyünə əsaslansaq, onda "Şair evlənməsi" komediyasında məişət problemləri daxilində özünü göstərən dramatizmin gərginlik səviyyəsinin böyüklüyü şübhəsiz qəbul olunar" [3, s.124].

Şinasi teatrı fikir və informasiyaları ötürmə üçün mükəmməl vasitələrdən biri hesab edirdi. Türk teatrının komediya növündəki ilk sınağı, dram növündəki Xeyrulla Əfəndinin pyesinə görə sənətkarlıq baxımından çox irəlidə idi. Şinasi özündən sonrakı ədiblər üçün də təşviqedici olmuşdur.

Türkiyənin ictimai-mədəni həyatında fəal rolu olan İbrahim bəy Şinasi ölkə tarixində ilk müstəqil qəzetin – "Tərcüməni-əhval"ın yaradıcısı, eyni zamanda ilk məqalənin ("Tərcüməni-əhval"ın müqəddiməsinin) müəllifi olmuşdur. Avropa ədəbiyyatından ilk şeir tərcümələri də İ.Şinasiyə aiddir.

Birinci dönəm tənzimat ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri Namiq Kamaldır. O, Türkiyə ədəbiyyatında vətənpərvərlik mövzusunda ən təsirli şeirlər yazan və "Vətən", "millət", "azadlıq" sözlərini Türkiyə ədəbiyyatında ilk dəfə istifadə edən şair olmuşdur.

1867-ci ildə Avropaya gedən N.Kamal orada dramaturgiya ilə maraqlanmış və teatrın yalnız əyləncə vasitəsi deyil, eyni zamanda tamaşaçının mədəni səviyyəsini yüksəltmə xüsusiyyətinin də olduğunu görmüşdür. Bu baxımdan Namiq Kamal dram janrının xalqı əyləndirərək maarifləndirmək üçün mükəmməl bir vasitə olduğunu hesab edirdi. Minlərlə insana xitab edən bu sənət növünün "əxlaq və dil" məktəbi olduğunu dərk etmişdir. Ümumiyyətlə, Namiq Kamal dram yaradıcılığına çox üstünlük vermişdir. Hələ Parisdə olarkən Namiq Kamal atasına yazdığı məktubların birində bu barədə fikirlərini belə ifadə edirdi: "Bir millətin gözəl söyləyiş qüdrəti ədəbiyyatında, ədəbiyyatın da ən canlı ifadəsi dram əsərlərində bəlli olur" [3, s.152]. Avropadan dönüncə 1873-cü ildə "Vətən, yaxud Silistrə" pyesini yazmış və əsər elə həmin ildə də səhnələşdirilmişdir. "Vətən, yaxud Silistrə" pyesi dövrün vətənpərvərlik və qəhrəmanlıq duyğularını yüksək səviyyədə ifadə etmişdir. Daha sonra N.Kamal bir-birinin ardınca təxminən üç il ərzində "Zavallı cocuq", "Akif bəy", "Qara bəla", "Cəlaləddin Xarəzmşah" pyeslərini yazmışdır. N.Kamalın dram əsərləri Türkiyədə çox yayılmış və sevilmiş, eyni zamanda ona böyük şöhrət qazandırmışdır.

"Vətən, yaxud Silistrə" ilə "Cəlaləddin Xarəzmşah" pyeslərinin mövzuları tarixi hadisələrdən götürülmüşdür. "Gülnihal", "Zavallı çocuq" və "Akif bəy" pyeslərində isə ictimai vəzifələr ön plana çıxarılmışdır. N.Kamalın sənətkarlıq baxımından ən qüvvətli əsərlərindən biri də "Gülnihal"dır.

Türkiyə ədəbiyyatında roman janrının əsası da Namiq Kamal tərəfindən qoyulmuşdur. Ədibin müəllifi olduğu "Cezmi" romanı Türkiyə ədəbiyyatı tarixində ilk tarixi roman, "İntibah" romanı isə ilk ədəbi roman hesab olunur.

Bundan başqa birinci dönəm Tənzimat ədəbiyyatının Əhməd Vefik Paşa, Əhməd Midhət Əfəndi, Şəmsəddin Sami, Ziya Paşa kimi görkəmli nümayəndələri olmuşdur ki, onlar da öz yaradıcılıqları ilə Türkiyə ədəbiyyatını və mədəniyyətini zənginləşdirmişlər [9].

Əhməd Vefik Paşa daha çox Avropa ədəbiyyatından uyğunlaşdırma tərzində əsərlər yazmış, həmçinin tərcümələr etmişdir. Molyerdən tərcümə etdiyi və "Çətin nikah", "Zorakı təbib" adlı türkcəyə uyğunlaşdırdığı əsərlər cəmiyyət tərəfindən maraqla qarşılanmışdır. Əhməd Mit-

hat Əfəndi isə "Əfsus" adlı dram əsəri ilə böyük müvəffəqiyyət qazanmışdır [9].

**II mərhələ Tənzimat ədəbiyyatı** 1877-ci ildə başlanmış, 1895-ci ilə qədər davam etmişdir. Bu dönəm ədəbiyyatının bir sıra xüsusiyyətləri olmuşdur. Bu dövrün yaradıcılığında I dövr yaradıcılığına nisbətən kütlənin problemləri daha az əks edilmişdir. "Sənət üçün sənət" şüarı aparıcı olmuşdur.

**II dönəm Tənzimat ədəbiyyatı** romanlarında realizmin təsiri artmış, ilk realist roman bu dövrdə yazılmışdır. Realizm və naturalizm bu dövrün əsas ədəbi cərəyanları olmuşdur.

Bu dönəm Tənzimat ədəbiyyatında teatr sənəti I dönəm Tənzimat ədəbiyyatındakı qədər aktuallıq kəsb etməmişdir. Səhnə dili və sənətkarlığı baxımından I dönəmə nisbətən daha uğursuz əsərlər yazılmışdır. Dram əsərləri səhnədə oynanması üçün yox, daha çox oxunmaq üçün yazılmışdı [5, s.273].

I dönəmdəki kimi Tənzimatın II mərhələsində də heca vəznində yaradıcılıqla yanaşı, əruz vəznində də yaradan şairlər olmuşdur. Roman və hekayə yaradıcılığı daha da inkişaf etmişdir. Birinci dönəmə nisbətən sənətkarlıq baxımından daha yüksək səviyyəli əsərlər meydana çıxmağa başlamışdır.

İkinci dönəm tənzimat ədəbiyatının ən görkəmli nümayəndələrindən biri də Əbdülhaq Hamid Tarhandır. O, avropalaşma hərəkatının ən qabaqcıl nümayəndələrindən olduğu üçün "şairi əzəm" (böyük şair) adı alan ədib Türkiyə ədəbiyyatının həm də ən orijinal yaradılıcılığa malik şairlərindəndir. Avropa və Asiya qitəsinin müxtəlif yerlərində işləyib yaşadığı üçün zəngin həyat təcrübəsinə malik olan ədibin şeir yaradıcılığının əsasını müşahidə və təəssüratları ilə bağlı şeirləri təşkil edir. Romantizmin təsiri ilə metafizika, ölüm, eşq kimi mövzuları özündə əks etdirən əsərlər yazmış "Məqbər", "Bunlar odur", "Ölü", "Həclə", "Qaram", "İlhamivətən" adlı şeir kitabları çap olunmuşdur [1; 2].

Ə.Hamid Tənzimat ədəbiyyatı dramaturgiyasının ən məhsuldar nümayəndələrindən biri hesab olunur. İlk əsəri "Macərayi-eşq"də fransız və ingilis ədəbiyyatından təsirləndiyi söylənilir. 1874-cü ildə "Səbrü-səbat"la "İçli qız"ı, sonra isə "Duhteri Hindi"yu (1875) yazmışdır. "Səbrü-səbat"da xalq danışıq üslubuna müraciət edərək xeyli miqdarda türk atalar sözləri, təkrarlamələr və cinaslı qafiyələrdən istifadə etmişdir.

Hamidin pyeslərinin bir qismi mənsur, bir qismi isə mənzum formadadır. Mənsur əsərləri: "Macərayi-eşq", "Səbri-səbat", "İçli qız", "Duhteri-hindi", "Fintən", "Yadigarı-hərb". Mənzum əsərləri: "Nazife", "Nesteren", "Eşbər", "Tarhan", "Sardanapal", "İlhan", "Xaqan", "Libertə". "Nesteren" və "Libertə"ni heca vəznilə, digər mənzum pyeslərini isə əruz vəznilə yazmışdır [1; 2].

Yaradıcılığının təhlili göstərir ki, Hamid "Finten"i yazarkən Şekspir, "Nesteren" və "Əşbər"i yazarkən isə Cornel yaradıcılığından təsirlənmişdir. "İçli qız" pyesini isə "Zavallı çocuq" pyesinin təsiri ilə qələmə aldığı söylənilir.

Ümumiyyətlə, Əbdülhaq Hamid ədəbi görüşləri baxımından romantizmin təsirində yazıb-yaradan bir sənətkar olmuşdur. Yaradıcılığında daha çox fərdin iç dünyasına nəzər salaraq, dərin fərdi-psixoloji mövzuları qələmə almışdır. Hamidin bütün pyeslərində xarakterlər ön plandadır, psixoloji təhlillərə xüsusi əhəmiyyət verilmişdir. Xüsusilə, ehtirasların təhlil və təsviri onun yaradıcılığında çox güclüdür. Pyeslərində ictimai motivli mövzulara çox toxunmasa da, lakin bu mövzulardan da tamamilə uzaqlaşmamışdır. Vətən və vətənpərvərlik mövzuları "Libertə" pyesində qabarıq şəkildə öz əksini tapmışdır.

Hamidin pyeslərindəki ən böyük qüsur onun dil və üslubunda olan nizamsızlıqdır. İlk pyeslərində səhnə qaydalarına ciddi fikir versə də, bir müddət sonra teatr qəliblərinə riayət etməmişdir. Ümumiyyətlə, 1880-ci ildən sonra yazdığı əsərlərini səhnədə oynanmaq üçün deyil, yalnız oxunmaq üçün yazmışdır. Bunun üçün dram əsərlərinin pərdə bölgüləri nizamsız olmuşdur. Pərdə sonlarına etdiyi əlavələr pyesin quruluşunu pozmuşdur. Eyni zamanda ədib yaradıcılığının ilk dönəmlərində xalq danışıq dilinə və üslubuna yaxınlaşsa da, sonralar bu üslubdan uzaqlaşmışdır.

"Macerayi-eşq", "Səbri-səbat", "İçli qız", "Finten", "Nesteren", "Liberte", "Əşbər" və s. kimi dram əsərləri səhnədə oynanmaq üçün nəzərdə tutulmasa da, ikinci dönəm Tənzimat ədəbiyyatının gözəl sənət nümunələri hesab olunmaqdadır. Ümumiyyətlə, ikinci dövr Tənzimat

ədəbiyyatının nümayəndələri dram əsərlərini daha çox səhnədə oynanmaq üçün deyil, oxunmaq üçün yazmışlar.

Yeri gəlmişkən onu da qeyd edək ki Tənzimat dövrünə qədər türklər arasında teatr sənəti əvəzi "Məddah", "Qaragöz" və "Orta oyunu" adı ilə tanınan xalq dramları oynanılırdı. Təqlidə əsaslanan "Məddah", obrazları pərdə üzərində əks etdirərək hekayəsi canlandırılan "Qaragöz" və ya xalq arasında baş verən hadisələri əks etdirən "Orta oyunu" adlı meydan tamaşası bugünki teatr sənəti və dram janrı adlı ədəbiyyat növünün qarşılığı olmuşdur. Bugünkü müasir teatr sənəti Türkiyə ədəbiyyatına Tənzimatdan sonra daxil olmuşdur. Tənzimat dövrü teatr sənəti eynilə Tənzimat dövrü romanında olduğu kimi, mövzu etibarilə əsasən tarixi və ictimai mövzuları əhatə etmişdir. Bu dövrdə daha çox komediya janrında əsərlər yazılmış və səhnəyə qoyulmuşdur. Dram əsərlərində sənətkarlıq baxımından bəzi naqis cəhətlər müşahidə edilməkdə idi, məsələn, əsərlərdəki müsbət obrazlar ifrat dərəcədə müsbət, mənfi obrazlar isə ifrat dərəcədə mənfi obrazlar kimi təqdim edilirdilər. Bu da o demək idi ki, o dövrdə hələ dram yaradıcılığında tipikləşdirmə xüsusiyyəti yox idi. Bu dövrdə Türkiyədə dramaturgiya Avropa dramaturgiyasının təsiri altında idi. Xüsusilə, Şekspir və Molyer kimi yazarlar ən çox təqlid edilən sənətkarlar idi [8].

İkinci dönəm Tənzimat ədəbiyyatının nümayəndələrindən biri də Müallim Naci olmuşdur. M.Naci daha çox Qərb tərzində şeirlər yazmışdır. Şeirlərinin dili ağır idi, lakin əsərləri geniş kütlənin rəğbətini qazanmışdır. "Atəşpara", "Füruzan", "Şərarə", "Dəmdəmə" adlı əsərləri, eyni zamanda "İslahati-ədəbiyə" lüğəti II dönəm Tənzimat ədəbiyyatının dəyərli sənət nümunələrindəndir [9].

Nəbizadə Nazim ilk psixoloji roman ("Zəhra") müəllifi, eyni zamanda ilk kənd həyatından bəhs edən ("Qarabibik") romanın müəllifi olmuşdur [9].

## Nəticə / *Conclusion*

Tənzimat ədəbiyyatında roman və hekayə janrında yazılan əksər əsərlər sənətkarlıq baxımından zəif idilər. Bu dönəm ədəbiyyatında daha çox romantik, eyni zamanda tarixi və ictimai mövzular işlənmişdir. Müəlliflər əsərlərdə tipolojiləşmiş bir xarakter yarada bilməmişlər. Eynən dram əsərlərində olduğu kimi, roman və hekayələrdə də ya ifrat müsbət, ya da ifrat mənfi xüsusiyyət daşıyan obraz tipləri yaradılmışdır. Yaxşılar əsərlərin sonunda mükafatlandırılmış, mənfi obrazlar isə cəzalandırılmışlar. Onu da qeyd etmək lazımdır ki, ikinci dövr Tənzimat ədəbiyyatının sənətçiləri birinci dövrünkülərə nisbətən daha çox uğur qazanmışlar.

Ümumiyyətlə, Tənzimat dövründə nəsr və dramaturgiya, eləcə də poeziya sahəsində forma, məzmun, ideya və s. cəhətdən yeniliklər özünü göstərdi. Tənzimat ədəbiyyatının bir sıra qüsurları olsa da, bu ədəbiyyat Türkiyə ədəbiyyatının yeni forma və məzmun qazanmasına səbəb olmuşdur.

## Ədəbiyyat / *References*


1. Abdülhak Hamid Tarhan. Tiyatroları-1 (Sabr-u Sebat, İçli Kız, Liberte, Yadigâr-ı Harb), (hazırlayan İnci Enginün). İstanbul: Dergâh Yayınları, 1998.
2. Abdülhak Hamid Tarhan. Tiyatroları-7 (Macera-yı Aşk, Nesteren, Zeynep, Hakan), (hazırlayan İnci Enginün). İstanbul: Dergâh Yayınları, 2002.
3. Quliyev E. Türk xalqları ədəbiyyatı (təkmilləşdirilmiş və yenidən işlənmiş nəşr). Bakı: Apostoroff, 2014.
4. Quliyev E. Türk xalqları ədəbiyyatı. Bakı: Conatant Empary, 2011.
5. Qurbanov A. "Füyuzat"ın işığında istiqlala çağırış. Bakı: Nurlar, 2018.
6. https://evrimagaci.org/osmanli-devletinde-tanzimat-ve-mesrutiyet-donemi-modern-lesme-cabalari-degisim-ruzgarlari-ve-bilimsel-dusunce-osmanliyi-nasil-etkiledi-8915

7. https://www.aydin.edu.tr/tr-tr/arastirma/arastirmamerkezleri/atam/ataturk/Pages /%C4% B0stiklal- Mar%C5%9F%C4%B1.aspx
8. https://www.turkedebiyati.org/tanzimat_donemi_tiyatrosu.html.
9. https://www.turkedebiyati.org/tanzimat-edebiyatinin-olusumu.html.

## Взгляд на творчество А.Г.Тархана в контексте эпохи Танзимата

**Ирада Аббасова**
Институт Фольклора НАНА. Азербайджан.
E-mail: irada.abbasova61@gmail.com

**Резюме.** Считавшаяся в XVI-XVII веках самым могущественным государством мира Османская империя в XIX веке переживала период ослабления и упадка. В этих условиях, с целью предотвратить дальнейший распад империи, получить поддержку Европы в Египетском вопросе, прекратить вмешательство европейских держав во внутренние дела империи, осуществляемые под предлогом защиты этнических меньшинств, остановить распространение этнического национализма и сепаратизма, связанное с влиянием идей Французской Революции, укрепить взаимосвязи между этническими меньшинствами и Османским государством, совершенно необходимым было проведение определенных реформ. По этой причине был подготовлен указ, оглашенный 3 октября 1839 года в парке Гюльхане, которым началась эпоха Танзимата.
Проводившиеся в империи реформы оказывали влияние не только на экономическую и общественно-политическую жизнь, но и на литературу. Стремление к сближению с Европой, подражание ей, следование европейским образцам естественным образом не миновали и османскую литературу, в которой под европейским влиянием на ее форму и содержание сформировалось совершенно новое течение, называемое Литературой эпохи Танзимата. В этот период в прозе и драматургии, а также в поэзии с точки зрения их формы, содержания и идеи произошли значительные нововведения. Несмотря на известные проблемы, литература эпохи Танзимата привнесла новое содержание и формы в турецкую национальную культуру. Во всем этом большую роль сыграло творчество Абдульхага Гамида.
**Ключевые слова:** Османская империя, Гюльханейский указ, литература эпохи Танзимата, Ибрагим Шинаси, Намиг Камал, Абдульхаг Гамид